BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Sosial-siyasi elmlər seriyası* 2008

# TƏLƏBİN TƏHLÜKƏSİZLİYİNİN BEYNƏLXALQ İNSTİTUSİONAL MEXANİZMİ: BEYNƏLXALQ ENERJİ AGENTLİYİ / İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI

**Ə.İ.SADIQOV**
*Bakı Dövlət Universiteti*

Beynəlxalq enerji adminstrasiyası sistemində növbəti beynəlxalq təşkilatlardan biri də Beynəlxalq Enerji Agentliyidir - İnternational Energy Agency (İEA). Agentlik tələbin təhlükəsizliyi institutu kimi meydana gəlməklə «bir növ OPEK-ə Qərbin əks tədbiri olaraq təsis edilib» (10, s.73-88). Agentlik OPEK üzvləri tərəfindən neftin qiymətinin bir neçə dəfə artırılmasından sonra (5, s.2-26) ABŞ dövlət katibi Henri Kissincerin təklifi əsasında beynəlxalq energetika proqramına uyğun olaraq təsis edilib. Təşkilati strukturun formalaşdırılması əsasən 1994-cü ilə təsadüf edir. Agentlik inkişaf etmiş sənaye ölkələrinin beynəlxalq qurumu kimi çıxış edən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının «avtonom» təsisatı statusuna malikdir. Agentlik beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində üzv-dövlətlərin əsas beynəlxalq forumu kimi çıxış edir. Onun ali orqanı hər üzv-dövlətdən energetika məsələləri üzrə məsul şəxslərdən ibarət formalaşan Rəhbər Şuradır. Şuranın fəaliyyəti isə İçracı direktor tərəfindən istiqamətləndirilən Katiblik tərəfindən təşviq edilir. Katibliyin tərkibində üzv-dövlətləri təmsil edən energetika məsələləri üzrə ekspert ştatı fəaliyyət göstərir. Mənzil qərargahı Parisdə yerləşən Agentlik OPEK-dən fərqli olaraq daha çox personala (OPEK-də 120 ştat olduğu halda Agentlik 200 nəfərlik heyətə) malikdir.

1992-ci il Beynəlxalq enerji Proqramı kimi qəbul edilmiş Saziş Agentliyin fəaliyyət istiqamətlərini müəyyən edir. Agentlik müəyyən mənada qapalı üzvlük qaydasını nəzərdə tutur. Belə ki, bu Təşkilatda üzvlük İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında üzvlüklə şərtləndirilib. Buna baxmayaraq sonuncunun üzvü olmaq Agentlikdə avtomatik üzvlük üçün əsas vermir. Qərarların qəbulu səs çoxluğu ilə qəbul edilsə də bir qayda olaraq neft idxal edən ölkələrin rolu əsas götürülür. Agentlik Avropa İttifaqı ilə, Enerji Xartiyasına Konfransla xüsusi əlaqələrə malikdir. Öncə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvləri, həmçinin Qərb ölkələri təmsil olunurdusa sonradan Cənubi Koreyanın, Mərkəzi-Şərqi Avropa ölkələrinin (Çex Respublikası, Baltikyanı dövlətlərin), eləcə də Meksikanın qoşulma prosesi onun ərazi miqyasını da genişləndirməkdədir.

Agentlik qeyri-üzv dövlətlərlə enerji məsələləri üzrə siyasi dialoq mərkəzinə malik olmaqla, həm də enerji problemləri ilə məşğul olan universal beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, UNCTAD, İMO və BMT-nin digər ixtisaslaşdırılmış strukturları ilə geniş əməkdaşlıq həyata keçirir. Beynəlxalq təşkilatlarla, inteqrasiya qurumları ilə əməkdaşlığın genişləndirilməsi

hər iki tərəfin enerji təhlükəsizliyinə xidmət edir (1, s.24-27). Təşkilatın üzv-dövlətlərin kollektiv enerji təhlükəsizliyindəki rolunu təsəvvür etmək üçün onun məqsədinə diqqət yetirilməlidir. Beynəlxalq Enerji Agentliyi üzv-dövlətlərin kollektiv enerji təhlükəsizliyi forumu olaraq:

– müxtəlif, o cümlədən alternativ enerji mənbələrinin inkişaf etdirilməsi məqsədilə əməkdaşlığı;

– enerji təchizatının pozulmasının qarşısının alınmasında infrastrukturun təkmilləşdirilməsini;

– enerjidən istifadədə effektivliyin yüksəldilməsini;

– üzv-dövlətlərdə energetika və ekoloji təhlükəsizliyin kordinasiya edilməsini;

– dünya neft bazarının vəziyyəti haqqında məlumatın təmin edilməsini;

– energetikanın inkişafının qlobal məsələlərinin həlli məqsədilə beynəlxalq təşkilatlarla və qeyri-üzvlərlə əməkdaşlığın həyata keçirilməsini nəzərdə tutur.

Qeyd edilən məsələlərlə yanaşı, Agentlik dünya enerji bazarında strateji proqnozları təmin edir (4, s.95). Belə bir fəaliyyətin həyata keçirilməsini onun ekspertiza mərkəzi təmin edir. Xüsusən də, neft resurslarının tədqiqi, tələbin idarə edilməsi üzrə təhlükəsizlik konsepsiyası tələbin azaldılmasına və üzv-dövlətlərdə ən azından 90 günlük ehtiyatların idarə edilməsinin kordinasiyasında mühüm əhəmiyyət kəsb edir. OPEK-də olduğu kimi Agentlik də sərbəst ehtiyat fondlarına (güclərinə) xüsusi diqqət göstərir (9, s. 62-68). Lakin OPEK-dən fərqli olaraq Agentlik yalnız hasilatdakı sərbəst ehtiyata deyil, həmçinin istehlakın məhdudlaşdırılmasına əsaslanır. Təşkilat çərçivəsində fəaliyyət göstərən iki mərhələli (7% və 12%-li) təchizat təhlükəsizliyi normalaşdırma planının işə salınması ilə enerji resursları artıq olan üzv-ölkələrin potensialından yararlanmağa imkan verir. Tələbin idarə edilməsi zamanı kollektiv təhlükəsizlik mexanizmi dünya neft bazarında qiymətlərə təsir etmək effektinə malik deyil. Bu zaman yalnız təchizatdakı davamlılıq təmin edilə bilər. Agentliyin təsis Sazişinə görə hər üzv dövlət 90 günlük idxal ehtiyat fondu formalaşdırmaq öhdəliyi daşıyır. Təchizata problem yarandığı halda Beynəlxalq Enerji Agentliyinin qərarı əsasında ehtiyat fondları satıla bilər. 1991-ci il Körfəz müharibəsində ayrı-ayrı üzv-dövlətlər istisna edilsə Agentlik həmin mexanizmdən istifadə etməmişdir. Lakin son zamanlar İranın nüvə problemləri ilə bağlı BMT TŞ-də məsələnin müzakirəsi ehtimalı və onun dünya neft bazarına mümkün təsirləri də Agentlik tərəfindən yüksək təhlükəsizlik tədbirlərini həyata keçirməyə məcbur etmişdir. Beynəlxalq Enerji Agentliyinin Baş Katibi bildirmişdir ki, əgər İrandan idxal edilən neftin idxalı dayanarsa bu halda Beynəlxalq Enerji Agentliyinin 18 aylıq ehtiyatı vardır (7, s.25). Bu hal onu göstərir ki, Agentlik üzv-dövlətlərin kollektiv enerji təhlükəsizliyi istiqamətində tədbirləri genişləndirməkdədir. Lakin bu tədbirlər sırf iqtisadi xarakterlidir və beynəlxalq hüquqi baxımdan Agentliyin fəaliyyətində bir sıra problemlər qeyri müəyyən olaraq qalmaqdadır. Xüsusən də, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvlərindən Kioto protokoluna münasibətdə qeyri-müəyyənliyin qalması, o cümlədən Avropa İttifaqı ölkələrindən fərqli olaraq ABŞ-ın onu ratifikasiya etməməsi, enerji resurslarına malik olan digər ölkələrdən Kanadanın bu

sazişə yenicə qoşulması (2005) (hər ikisi NAFTA-nın üzvləridir), enerji bazarlarının liberallaşdırılmasının tam həll edilməməsi qeyd edilə bilər. Agentliyin təşlükəsizlik sisteminin rəqabət tipli enerji bazarında rolu da qeyri-müəyyənlik yaradır (11, s.2). Digər tərəfdən, Agentlikdə də OPEK-də fəaliyyət göstərən sərbəst gücün tam realizəsi üçün investisiyalara zərurət duyulur. 80-ci illərin ortalarında dünya neft bazarında neftin qiymətinin kəskin aşağı düşməsi neftayırma infrastrukturlarının müəyyən bir hissəsinin sıradan çıxmasına səbəb olmuşdu. Qiymətlərin qalxmasından sonra isə həmin infrastruktura əhəmiyyətli kapital qoyuluşu tələb edilir. Qlobal enerji təhlükəsizliyinin təmin edilməsi üçün istər Agentliyin, istərsə də OPEK üzvlərində, həmçinin tranzit ölkələrində kapital qoyuluşunu təşviq edən beynəlxalq hüquqi rejimi müəyyən edəcək sazişə zərurət duyulur. 1995-ci ildən başlayaraq investisiyalar üzrə çoxtərəfli Saziş İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən hazırlanmış və Dünya Ticarət Təşkilatına təqdim edilsə də məsələnin gələcək həlli açıq qalmaqdadır.

Digər bir məsələ, kollektiv enerji təhlükəsizliyi qurumu kimi onun həm Avropa İttiffaqı, həm də Enerji Xartiyasının Konfransı üzrə münasibətlərində də qeyri-müəyyənlik mövcuddur. Baxmayaraq ki, fəaliyyət istiqamətləri əksər halda üst-üstə düşür.

Enerji resurslarına tələbin idarə edilməsində Beynəlxalq Enerji Agentliyi növbəti fəaliyyət istiqamətlərinə malikdir:

– dünya neft bazarında və energetika texnologiyası sferasında tədqiqatlar aparmaq;

– ekoloji faktorları nəzərə alaraq uzunmüddətli əməkdaşlıq nəticəsində daş kömür, təbii qaz, hidroenerji, nüvə enerjisi, bərpa olunan enerji mənbələrinin inkişafını təşviq etməklə üzv-ölkələrə yardım etmək;

– fövqəladə vəziyyətlərdə daimi əsasda neftin bölüşdürülməsi sisteminin yaradılması; yerli enerji istehsalının artırılmasını; zərurət olduqda neftdən digər enerji mənbələrinə təcili keçid imkanını; ehtiyat fondlarının yaradılması yolu ilə fövqəladə vəziyyətlərin qarşısının alınmasını təmin etmək;

– üzv-dövlətlərin enerji effektivliyinə nail olunması üçün onların enerji siyasətinin təhlilinin təmin edilməsi və s. qeyd edilməlidir.

Beynəlxalq Enerji Agentliyi beynəlxalq hüquqi baxımdan üzv-dövlətlərə təsir imkanına malik deyil. Buna baxmayaraq energetika təhlükəsizliyinə təhdidlərin qarşılanması üçün zəruri təcili bölgü sistemi enerji təhlükəsizliyinin sığortalanmasında mühüm əhəmiyyət kəsb edir. Qərb tipli beynəlxalq təşkilat olaraq qlobal enerji dialoqunu əlaqələndirmək, tədqiqatlar aparmaq, həmçinin enerji bazarlarının qloballaşması istiqamətində vahid siyasətin hazırlanmasını həyata keçirmək iqtidarında olan beynəlxalq təşkilatdır.

Qeyd etdiyimiz kimi Beynəlxalq Enerji Agentliyi OECD-nin avtonom enerji qurumlarından biri kimi təsis edilib və onun universal strukturunu tamamlayır.

Sənaye ölkələrinin beynəlxalq iqtisadi-enerji-maliyyə mərkəzi kimi fəaliyyət göstərən beynəlxalq təşkilatlardan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının – Organisation for Economic Cooperation and Development (OECD) təsisi (1961) dünya neft bazarında istehsalçı dövlətlərin beynəlxalq qurumunun – OPEK-in təsis edildiyi dövrə təsadüf edir. OECD 1948-cı ildə yaradılmış Avropa İqtisadi və

Əməkdaşlıq Təşkilatının əsasında formalaşdırılıb. OECD öncə Qərbin sənaye ölkələrinin klubu kimi təsis edilsə də, hazırda Şərqi Avropanın və postsovet ölkələrinin (məsələn, Baltikyanı ölkələr, RF, Qazaxıstan və s.) üzvlüyü ilə bağlı Mərkəzin fəaliyyət göstərməsi, eyni zamanda Yeni Zelandiya, Avstraliya, Yaponiya və s ölkələrin üzlüyü bu təşkilata geniş əhatəli bir qurum statusu vermişdir.

1961-ci il təsis aktı, Konvensiya imzalandıqdan sonra beynəlxalq hüquq subyektliyinə malik olan bir təşkilat olaraq dünya enerji bazarına təsir edəcək bir sıra institusional tədbirlər həyata keçirmişdir.

Bir tərəfdən, dünya enerji bazarında BMT-nin maliyyə-valyuta (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və s.), inkişaf (UNCTAD, UNECKO və s.) məsələləri üzrə ixtisaslaşmış qurumları, həmçinin Dünya Ticarət Təşkilatı ilə, Beynəlxalq Atom Enerjisi Agentliyi ilə geniş əməkdaşlığa malikdirsə, digər tərəfdən, özünün təsis etdiyi avtonom beynəlxalq strukturlarla (məsələn, Beynəlxalq Enerji Agentliyi, Nüvə Enerjisi Agentliyi və s.) dünya enerji bazarının yönəldicilərindən birinə çevrilmişdir.

OECD-nin təsis edilməsi haqqında Konvensiya ilə eyni vaxtda imzalanmış Protokola görə Avropa Kömür və Podal Birliyi və Avroatom, həmçinin Avropa İttifaqının Komissiyası OECD-nin işində fəal iştirak edirlər.

OECD-nin məqsədi kimi:

– üzv və qeyri-üzv dövlətlərin davamlı iqtisadi-sosial inkişafının təşviq edilməsi;

– beynəlxalq öhdəliklərə uyğun olaraq ayrı-seçkiliyi istisna etməklə çoxtərəfli əsasda dünya ticarətinin inkişafının təşviq edilməsi;

– üzv ölkələrdə maliyyə stabilliyini saxlamaqla yüksək iqtisadi inkişafı, həyat səviyyəsini və məşğulluğu təmin etmək;

– inkişafda olan ölkələrə yardımın təşviqi və bu sahədə fəaliyyətin kordinasiyasının təmin edilməsi və s. qeyd edilməlidir.

OECD davamlı iqtisadi inkişafı kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti ilə, enerji şirkətlərinin davranış qaydasının müəyyənləşdirilməsi, antikorrupsiya fəaliyyətinin tənzimlənməsi, enerji sektorunda şəffaflıq təşəbbüsünün təmin edilməsi ilə əlaqələndirir. OECD eyni zamanda üzv ölkələrdə maliyyə resurslarının liberallaşdırılması, ətraf mühitin mühafizəsi sahəsində yumşaq hüquq normalarının formalaşdırılması istiqamətində fəaliyyət göstərir. Onun fəaliyəti 20-dən çox ixtisaslaşmış funksional komitələrlə (enerji siyasəti, ticarət, maliyyə bazarı, kapitalın hərəkəti və görünməyən əqdlər, vergi siyasəti, rəqabətə münasibətdə hüquq və siyasət, istehlak siyasəti, sosial siyasət, beynəlxalq investisiyalar və çoxmilli müəssisələr, ətraf mühitin mühafizəsi və s. ilə) yönəldilir. Lakin ümumi strukturda həlledici fəaliyyət onun əsas orqanlarına mənsubdur. Rəhbər orqan kimi üzv ölkələrdən formalaşdırılan Şura çıxış edir. Qərarlar konsensusla qəbul edilir və tövsiyə xarakteri kəsb edir. Lakin bəzi hallarda lehinə səs vermiş ölkələr üçün məcburi qərarlar da qəbul edilir. Digər qurum Şuraya tabe olan İcraçı komitədir. Təşiklatın inzibati və operativ fəaliyyəti isə beş il müddətinə Şura tərəfindən seçilən, Baş katib tərəfindən rəhbərlik edilən Katiblik vasitəsilə həyata keçirilir.

OECD-nin strukturu və daxili hüquq qaydası onun beynəlxalq iqtisadi münasibətlərdəki uğuru kimi də qiymətləndirilir (12, s. 478-505). Onun hüquq qaydası kollektiv etimada əsaslandığından energetika,

investisiya, ikiqat vergi qoymanın aradan qaldırılması üzrə beynəlxalq hüquqi layihələri (3, s.147) geniş tətbiq edilməkdədir. Xüsusilə də, OECD çərçivəsində birbaşa xarici investisiyaların rejimi, eləcə də Kapitalın hərəkətinin liberallaşdırılması Məcəlləsi (1961) (6, s.178-179) qeyd edilə bilər.

Təşkilat çərçivsində transmilli şirkətlərin fəaliyyətinin beynəlxalq hüquqi tənzimlənməsi üzrə tədbirlər, o cümlədən 1976-cı ildə Çoxmilli şirkətlər üçün başlanğıc prinsiplərin qəbul edilməsi kapitalın hərəkətinin liberallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Müvafiq sənədə görə transmilli şirkətlər qəbul edən dövlətin daxili yursidiksiyasına uyğun fəaliyyət göstərməli, həmçinin biznes strukturlarının bazarlarda rəqabəti istisna edən inhisarçılığı yolverilməz hesab edilir. Birbaşa xarici investisiya sahibləri qəbul edən dövlətin tədiyyə balansına, kredit siyasətinə, maliyyə və vergiqoyma, ətraf mühitin mühafizəsi siyasətinə müdaxilə edə bilməzlər. Qeyd edilən sənəd 1992 və 2000-ci illərdə də yenidən təshihlərə məruz qalmışdır (8).

OECD çərçivəsində hazılanan və dünya enerji bazarı ilə əlaqədar olan bir çox layihələr üzrə beynəlxalq hüquq yaradıcılığı dövlətlərin qlobal iqtisadi sistemlərinə keçirilmişdir. Qeyd etdiyimiz Çoxmilli müəssisələr üçün başlanğıc prinsiplər BMT çəriçvəsində Transmilli şirkətlər üzrə Məcəllə Layihəsinin, yenə də OECD çərçivəsində hazırlanan ikiqat vergiqoymanın aradan qaldırılması haqqında (1977) Model Konvensiya BMT çərçivəsində analoji Konvensiyanın qəbuluna (1979) gətirib çıxarmışdır. Həmçinin OECD-nin 1995-ci ildən hazırlamağa başladığı İnvestisiyalar üzrə çoxtərəfli Saziş layihəsinin müzakirəsinin Dünya Ticarət Təşkilatına keçirilməsi qlobal enerji təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

İnvestisiyalar üzrə çoxtərəfli saziş energetika sferasına yeni kapital qoyuluşunu təşviq edən beynəlxalq hüquqi rejimin müəyyən edilməsinə istiqamətlənməklə qlobal enerji təhlükəsizliyinin təminat istitutlarından biri kimi qiymətləndirilməlidir. Əgər bu layihə realizə edilərsə, o halda EXM çərçivəsində investisiyaların tənzimlənməsini nəzərdə tutacaq Əlavə Müqaviləyə də zərurət qalmayacaq. Çoxtərəfli saziş energetika sferasının spesifikliyini də nəzərə almağa üstünlük vermişdir. Belə ki, istənilən dövlət üzv olma zamanı özünün milli xüsusiyyətlərindən, sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq nəzərdə tutulan öhdəliklərdən fərqli qaydalar da müəyyən edə bilər. Fərdi istisnalar sazişin tərkib hissəsi kimi qəbul edildiyindən üzv dövlətlərə onları tətbiq etmək hüququ verilirdi. Sazişə üzvlük üçün bütün iştirakçıların razılığı tələb olunur. Saziş dövlətlərin fərdi iqtisadi, sosial, siyasi və mədəni inkişaf xüsusiyyətlərini nəzərə alaraq liberallaşdırma prinsipinin bərqərar edilməsinə yönəldilmişdir. Saziş layihəsində öhdəliklərdən nəzərdə tutulan istisnalar üç qrupa bölünür:

– sazişdə iştirak edən bütün dövlətlər milli təhlükəsizliyin təmini, o cümlədən özünün maliyyə sisteminin stabilliyi üçün istənilən tədbirlərdən;

– tədiyə balansında böhran vəziyyətinin qarşısını almaq məqsədilə müdafiə müddəalarından istifadə etmək;

– həmçinin üzv olma və ya qoşulma prosesində istənilən dövlət özünün Sazişə zidd olan daxili qanunvericiliyini tətbiq etməyə imkan verən xüsusi fərdi qeyd-şərtini ifadə etmək hüququna malikdir.

İnvestisiyalar üzrə çoxtərəfli Sazişdə diqqəti çəkən əsas prinsiplər

кimi:

1) investisiyalara münasibətdə bütün normativ aкtların dərc edilməsini nəzərdə tutan aşкarlıq (transparentliк);
2) yerli investorlar üçün nəzərdə tutulan rejimdən az əlverişli olmayan rejimin xarici investorlar üçün nəzərdə tutan milli rejim;
3) daha əlverişli rejim;
4) кapitalın sərbəst кöçürülməsi;
5) ticarətlə bağlı müəyyən növ investisiya tədbirlərinin, o cümlədən ixrac tələbinin, yerli кomponentdən istifadə və texnologiyaların verilməsi tələbinin qadağan edilməsi;
6) mülкiyyətin eкspropriasiyası yalnız ümumi, sosial məqsədlər üçün çeviк, adeкvat və effeкtli кompensasiya ödəməкlə həyata кeçirilməli;
7) mübahisələrin danışıqlar və arbitraj qaydasında həlli prinsipləri təsbit edilib.

Qeyd edilən istisna və prinsiplər energetiкa sferasının spesifiкliyinin nəzərə alınmasına yönəlsə də bir qayda olaraq müvəqqəti xaraкterlidir. Digər tərəfdən, energetiкa кimi strateji bir sahədə xarici investorlara milli rejimin verilməsi dövlətlərin fərqli iqtisadi inкişafı dövrü üçün real görünmür. Təsadüfi deyil кi, EXM çərçivəsində hazırlanan Əlavə Müqavilənin layihəsi bu məsələdə daha irəli getmişdir.

OECD-nin investisiyaların beynəlxalq hüquqi tənzimlənməsi sferasındaкı aкtları bir qayda olaraq bazarın liberalaşdırılmasına, rəqabət qaydalarının bərqərar olmasına yönəlir. Belə bir məzmun bərabər inкişaf səviyyəli milli energetiкa sistemləri üçün məqbul model sayıla bilər. Laкin inкişafda olan, həmçinin кeçid iqtisadiyyatlı dövlətlərdə müvafiq prinsiplər müəyyən qeyd-şərtlə tətbiq edilməlidir. Həmin dövlətlərdə кorparativ məsuliyyət institutuna xüsusi diqqət yetirilməlidir. Qlobal iqtisadi sistemdə xüsusi кorparasiyalar özünün кapitalını investisiya qoymaqla adeкvat mənfəət əldə etməк hüququ əldə edirlər. Onların əmlaкı ictimaiyyət nəfinə götürüldüкdə də ədalətli кompensasiya almaq hüququna maliкdirlər. Laкin belə bir problem də qəbul edilməlidir кi, xarici dövlətdə onlar, həm də sosial inкişaf yönümlü öhdəliк daşıyırlar. Başqa sözlə, beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq onlar qəbul edən dövlətin strateji əhəmiyyətli iqtisadiyyatının sosial istiqaməti üzrə hüquq və vəzifələrini birmənalı qəbul etməli, o cümlədən sosial, təbiəti mühafizə və s. proqramların həyata кeçirilməsində fəal iştiraк etməlidirlər. Müvafiq olaraq istənilən beynəlxalq investisiya sazişi кorparativ məsuliyyəti, onun sosial istiqamətini nəzərədə tutmalıdır.

Ümumiyyətlə, OECD-nin enerji təhlüкəsizliyinin təmin olunması istiqamətindəкi fəaliyyəti münasibət iştiraкçılarının beynəlxalq hüquq qaydasına uyğun hüquq və vəzifələrinin müəyyən edilməsinə yönəlib. Bir tərəfdən, transmilli şirкətlərin onları qəbul edən dövlətin daxili işlərinə qarışmamaq siyasətini legitimləşdirirsə, digər tərəfdən xüsusi mülкiyətin müdafiəsi, кontraкt və arbitraj qeyd şərtinin mülкi cəmiyyətlə əlaqələndirilməsi qeyd edilməsi vacib olan məsələlərdəndir. Eyni zamanda beynəlxalq neft və qaz investisiyalarının idarə olunması zamanı yerli dövlət кompaniyaları ilə münasibətdə şəffaflığın təmin edilməsi, özəlləşdirmə və xidmət кontraкtlarının həyata кeçirilməsində anti-кorrupsiya mexanizmlərinin formalaşdırılması üzrə tövsiyələr mühüm əhəmiyyət кəsb edir.

Beynəlxalq energetiкa bazarında OECD-nin rolu bir neçə istiqamətdə və miqyasda diqqəti cəlb edir. İstiqamətlər кimi qeyd etdiyimiz enerji təchizatının təhlüкəsizliyi, həmçinin bütün neft-qaz investisiyalarında beynəlxalq hüquqi rejimin təsis edilməsi, idarəetmədə şəffaflığın təmini, nüvə energetiкası sferasında beynəlxalq hüquq qaydasının formalaşdırılması, bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi və s. ilə bərabər müxtəlif reqional inteqrasiya qrupları onun fəaliyyətində təmsil olunmaqdadırlar. Xüsusilə də, ABŞ-Kanada-Meкsiкanın (1994) təsis etdiyi Şimali Ameriкa Ticarət Zonasının (NAFTA), Avropa İttifaqının və d. qurumların OESD-də təmsil olunması OESD dəyərlərinin universal hüquq qaydasına transformasiya edilməsi конteкstində mühüm əhəmiyyət daşıyır. Bu məsələ NAFTA-nın təsisi haqqında Müqavilənin (XI maddənin), Enerji Xartiyasına Müqavilənin və nəhayət, İnvestisiyalar üzrə çoxtərəfli Sazişin layihəsinin hazırlanması zamanı az əhəmiyyət кəsb etməyib.

Dünya iqtisadi sisteminin liberallaşdırmaya məruz qalması fövqündə ticarətin, investisiyaların enerji resursları ixrac edən ölкələrin maraqlarını nəzərə almadan tənzimlənməsi, şübhəsiz кi, enerji təchizatının təmin edilməsini qeyri-müəyyən etmiş olardı. Ona görə də OECD-yə enerji təhlüкəsizliyinin təmin olunmasında qlobal iqtisadi təhlüкəsizliyin bir elementi кimi baxılmalıdır.

Qlobal enerji təhlüкəsizliyinin təmin olunması istiqamətində OECD üzvlərinin, o cümlədən «G-7»nin qəbul etdiyi yumşaq hüquq normalarının analizi də dövlətlərin inкişaf səviyyəsinin, enerji sistemində onların yerinin nəzərə alınmasını vacib sayır (2, s.141).

AR кimi enerji resursları ixrac edən regionun digər ölкələrinin OECD ilə əməкdaşlığı energetiкa sferasında enerji effeкtivliyi prinsipinin, Şəffaflıq Təşəbbüsünün daha geniş formada tətbiqinin qanunvericiliк əsasının təsis edilməsini təşviq etmiş olardı.

**ƏDƏBİYYAT**


1. Алекперов В.Ю. (от. ред.) Предвестие эры нефти. М.: Энергия, 2003, с.24-27
2. Глобальная энергетическая безопасность. Междунар. экол. право в документах. Сост. Т.Гусейнов. с.141.
3. Кучеров И.И. Международное налоговое право (Академ. курс), М., 2007, 452 с.
4. Миронов Н.В. Международная энергетическая безопасность: Учебное пособие (Н.В.Миронов М.: МГИМО (У) МИД: Росии, 2003, 165с.
5. Мировая энергетическая политика. №8, 2003, с.2-26.
6. Фархутдинов И.З. Международное инвестиционное право: теория и практика применения. М.: Волтерс - Клувер, 2005, 432с.
7. Яценко М.А. Нефть во внешнеэкономических связах России. Монография /Сер. «Россия в мировой экономике», М.: Научная книга. 2006, 144с.
8. Acconci Pia. The Promotion of Responsible Business Conduct and the New Text of the OECD Guidelines For Multinational Enterprises, 2 JWI 1233 (2001): http: // www.oecd.org./daf/investment/guidelines/mnetext.htm
9. Energy Policies of IEA Conutries. – Paris: IEA /OECD, 2003, p.62-68
10. Holley D.L. The IEA and EEC emerqency oil allocation sustems: Legal problems. Journal of Energy and Natural Resources Law. 1983, vol.1 №.2.pp.73-88
11. OECD. Policy Brief. №2, 1997, p.2
12. Tarullo D. Norms and Institutions in Global Competition Policy. 94 AJIL, 2000, pp.478-505.


**МЕЖДУНАРОДНЫЙ ИНСТИТУЦИОНАЛЬНЫЙ МЕХАНИЗМ**

## БЕЗОПАСНОСТИ СПРОСА: МЕЖДУНАРОДНОЕ ЭНЕРГЕТИЧЕСКОЕ АГЕНТСТВО / ОРГАНИЗАЦИЯ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА И РАЗВИТИЯ

**А.И.САДЫГОВ**

**РЕЗЮМЕ**

Региональные организации промышленно развитых стран довольно давно занимаются вопросами координации политики в отношении энергетической безопасности. Одним из таких организаций является ОЕСД и ее организационные структуры автономного характера (Международное Энергетическое Агентство, Агентство по ядерной энергии).

ОЕСД и автономные структуры, входящие в эту организацию являются основными системными элементами международной энергетической безопасности. Международно-правовая регламентация иностранных инвестиций, антикоррупционной деятельности в сфере энергетики, либерализации рынка в рамках ОЕСД имеет практическое значение для стран производителей энергоресурсов.

## INTERNATIONAL INSTITUTIONAL MECHANISM OF SECURITY OF DEMAND. INTERNATIONAL ENERGY AGENCY/ OECD

**A.I.SADIGOV**

**SUMMARY**

Both regional organizations of the developed countries and international organizations play an important role in energy security. One of these organizations is OECD and its specialized institutions.(International Energy Agency, Agency on Nuclear Power) .OECD and its autonoum structures takes a remarkable place in international energy security. International legal regulation practice of regulation of the foreign capital, anticorruption action, and liberalization of energy market in the frames of OECD play an important role for the countries exporting energy resources.